III BÖLMƏ
EKOLOGİYA PROBLEMLƏRİ, RƏQABƏTQABİLİYYƏTLİ İSTEHSAL VƏ İDARƏETMƏ MEXANİZMLƏRİ

UOT-33.332

Məlahət Firqət qızı RƏHİMOVA
Mingəçevir Dövlət Universiteti
baş müəllim, iqtisadiyyat üzrə fəlsəfə doktoru
E-mail:rehimova77@list.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.1114

ƏTRAF MÜHİT PROBLEMLƏRİ VƏ ONLARIN DÜNYA İQTİSADİYYATINA TƏSİRİ

Xülasə

Tədqiqatın məqsədi - ətraf mühit problemlərinin qlobal iqtisadi proseslərə təsir mexanizmlərini elmi əsaslarla müəyyənləşdirmək və davamlı inkişaf üçün zəruri istiqamətləri dəyərləndirməkdir.

Tədqiqatın metodologiyası - tədqiqatda ekoloji-iqtisadi qarşılıqlı təsirlərin təhlili sistem yanaşması, müqayisəli analiz və normativ qiymətləndirmə metodlarından istifadə edilməklə aparılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti - araşdırma nəticələri ekoloji siyasətin formalaşdırılması, yaşıl texnologiyalara investisiya strategiyalarının hazırlanması və iqtisadi qərarların ekoloji risklər nəzərə alınmaqla optimallaşdırılması üçün praktik baza yaradır.

Tədqiqatın nəticələri göstərir ki, ətraf mühitin deqradasiyası iqtisadi artımı zəiflədir, istehsal səmərəliliyini azaldır və resurs çatışmazlığına görə makroiqtisadi riskləri artırır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi ondan ibarətdir ki, ətraf mühit problemlərinin qlobal iqtisadiyyatla qarşılıqlı təsirinin kompleks sistem modeli kimi təhlil edilməsində və yaşıl transformasiyanın iqtisadi sabitlik üçün strateji determinant kimi yenidən konseptuallaşdırılmasındadır.

Açar sözlər: ekologiya, ətraf mühit, dünya iqtisadiyyatı, “yaşıl” iqtisadiyyat, dayanaqlı inkişaf.

Giriş

Müasir dövrdə ətraf mühit problemləri qlobal iqtisadiyyat üçün ciddi çağırış kimi ortaya çıxmışdır. Onların təsiri yalnız ekoloji sistemlərlə məhdudlaşmır, həm də iqtisadi artım, sosial rifah və resursların dayanıqlı istifadəsinə birbaşa təsir göstərir. Sənayeləşmə, urbanizasiya və intensiv insan fəaliyyəti təbii resursların sürətli istismarı və ekosistemlərin deqradasiyasına səbəb olmuş, nəticədə qlobal iqtisadi sistemdə risklərin artmasına gətirib çıxarmışdır. Resurs çatışmazlığı, torpaqların deqradasiyası, meşə ehtiyatlarının azalması və su qıtlığı kimi problemlər iqtisadi inkişafı zəiflətməklə yanaşı, istehsal potensialı, əmək məhsuldarlığı və sosial xərclərə mənfi təsir göstərir.

Ətraf mühit problemlərinin iqtisadiyyata təsirlərinin araşdırılması yalnız iqtisadi ziyanı müəyyənləşdirməklə kifayətlənmir. Eyni zamanda yaşıl texnologiyaların tətbiqi, davamlı inkişaf prinsiplərinin təşviqi və dövlət siyasətinin formalaşdırılması baxımından praktik əhəmiyyət kəsb edir. Bu kontekstdə tədqiqat ekoloji problemlərin qlobal iqtisadi proseslərdə rolunu, onların iqtisadi risklər və imkanlarla qarşılıqlı təsirini, habelə yaşıl transformasiya strategiyalarının effektivliyini qiymətləndirməyi məqsəd qoyur.

Bundan əlavə, ətraf mühit problemlərinin həlli yalnız texnoloji innovasiyalarla deyil, həm də beynəlxalq əməkdaşlıq, ictimai maarifləndirmə və resursların səmərəli idarə olunması vasitəsilə

mümkün olur. Bu baxımdan, tədqiqat ətraf mühitin qorunması və iqtisadi inkişaf arasında optimal tarazlığı təmin etmək üçün elmi və praktik tövsiyələrin hazırlanmasına töhfə verir. Nəticədə, ətraf mühit problemlərinin qlobal iqtisadiyyata təsirinin qiymətləndirilməsi yalnız iqtisadi göstəricilər üçün deyil, həm də sosial rifah, davamlı inkişaf və strateji qərarların qəbul olunması üçün zəruri hesab edilir.

Qlobal ətraf mühit problemlərinin iqtisadi təsirləri

Müasir dünyada ətraf mühit problemləri getdikcə daha da aktuallaşır və qlobal iqtisadiyyata əhəmiyyətli dərəcədə təsir göstərir. Bu proseslər bütün ölkələrin iqtisadi sistemləri və müxtəlif sənaye sahələrinə kompleks şəkildə təsir göstərərək qlobal iqtisadi artımın dinamikası ilə birbaşa əlaqə yaradır. Ekoloji böhranın yaratdığı iqtisadi problemlər, inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələr üçün ortaqdır.

Hazırda ekoloji böhran dünya miqyasında aktual bir məsələdir və insan fəaliyyətinin bir çox sahələrinə, o cümlədən milli iqtisadiyyatlara və bütövlükdə qlobal iqtisadiyyata əhəmiyyətli dərəcədə təsir göstərir.

Qlobal iqtisadiyyatın sürətli və maneəsiz inkişafı, ətraf mühit məhdudiyyətlərinin yetərincə nəzərə alınmaması nəticəsində, dünya səviyyəsində ciddi ekoloji problemlərin yaranmasına səbəb olmuşdur. Bu problemlər insan sivilizasiyasının dayanıqlığı və gələcək nəsillərin yaşayış şəraitinə birbaşa təsir göstərə biləcək potensiala malikdir. Ən əhəmiyyətli ekoloji çağırışlar arasında qlobal iqlim dəyişikliyi, səhralaşma, meşələrin məhv edilməsi, xammal resurslarının tükənməsi, ozon qatının azalması, turşu yağışları, şirin su çatışmazlığı, okeanların çirklənməsi və biomüxtəlifliyin itməsi yer alır.

Hazırda ətraf mühitin deqradasiyası əvvəlki dövrlərlə müqayisədə misli görünməmiş səviyyədədir. Son onilliklərdə istehsal və istehlakın kəskin artması, xüsusilə sənaye və kənd təsərrüfatı sektorlarında, ekosistemlərə qlobal miqyasda qeyri-sabit və dağıdıcı təsir göstərmişdir.

İqtisadi inkişaf ilə ətraf mühitin qorunması arasındakı ziddiyyət getdikcə dərinləşmişdir. Son üç onillikdə qlobal ÜDM 4,6 dəfə artmış, bu da milyonlarla insanın həyat səviyyəsini yüksəltmiş və bir çox ölkələrdə orta təbəqənin formalaşmasına şərait yaratmışdır [1]. Lakin bu iqtisadi artım əsasən təbii kapitalın tükənməsi və ekosistemlərin deqradasiyası hesabına baş vermişdir.

İqtisadi və sosial məhdudiyyətlər müəyyən dərəcədə hər bir ölkə üçün spesifik olsa da və müəyyən dərəcədə dəyişə bilsə də, ekoloji məhdudiyyətləri “atlamaq” mümkün deyil. Yer kürəsinin biosferinin məhdud daşıma qabiliyyəti insan inkişafının təbiətə əsaslanan iqtisadi modellərinə ciddi məhdudiyyətlər qoyur. Bəşəriyyət 1970-ci illərin əvvəllərindən bəri ətraf mühitə mənfi təsirini kəskin şəkildə artırmışdır və qlobal inkişaf üçün mövcud iqtisadi, sosial, təbii və institusional təməllərin biosferin daşıma qabiliyyətinə uyğun gəlmədiyi aydındır.

Ekoloji çağırışların həlli yalnız texnoloji yenilikləri deyil, həm də institusional, sosial və iqtisadi mexanizmlərin birgə fəaliyyətini tələb edən hərtərəfli strateji yanaşma zərurətini ortaya qoyur. Bu sahədə tədbirlərin gecikdirilməsi və ya yetərsiz olması isə resurs çatışmazlığı, istehsalın azalması, infrastrukturun zədələnməsi və əlavə maliyyə xərcləri kimi ciddi iqtisadi itkilərlə nəticələnə bilər.

Ətraf mühitin keyfiyyətinin pisləşməsi insan rifahına çoxşaxəli təsir göstərir. O, xüsusilə də sosial cəhətdən həssas və aşağı gəlirli qruplar üçün riskləri artırır, onların sosial-iqtisadi inkişaf imkanlarını isə əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Qloballaşmanın sürətlənməsi, beynəlxalq iqtisadi inteqrasiyanın genişlənməsi və sənaye istehsalının intensivləşməsi fonunda ekosistemlər üzərində antropogen təzyiq yüksəlir və bu da zərərli ekoloji dəyişikliklərin daha tez-tez və daha geniş miqyasda baş verməsinə gətirib çıxarır.

Müasir dövrdə qlobal ekoloji problemlər çoxsaylı və mürəkkəbdir. Lakin onların arasında iqlim dəyişikliyi ən kritik məsələ kimi çıxış edir. Bu problem planetin bütün regionları və canlıları üçün ümumi təhlükə yaratdığından, onun həlli beynəlxalq həmrəyliyi və dövlətlər arasında koordinasiyalı fəaliyyət mexanizmlərini tələb edir. Məhz bu səbəbdən BMT və digər beynəlxalq qurumlar qlobal ekoloji idarəetmə sistemlərinin təkmilləşdirilməsi istiqamətində fəal təşəbbüslərlə çıxış edirlər.

Qloballaşmanın iqtisadi müstəvidə sürətlənməsi və ölkələr arasında ticarət əlaqələrinin genişlənməsi ətraf mühitin mühafizəsi ilə bağlı milli standartların formalaşmasına və tətbiqinə də təsirsiz ötüşmür. Bir sıra iqtisadi tendensiyalar bu sahədə mühüm rol oynayır.

Birincisi, kapital axınları çox vaxt aşağı əmək dəyərinə malik ölkələrə yönəldiyindən, istehsalın belə regionlara köçürülməsi ekoloji tələblərin yumşaldılması riskini artırır.

İkincisi, transmilli korporasiyalar yeni bazarlara daxil olarkən adətən öz fəaliyyətlərini qlobal səviyyədə formalaşmış standartlara uyğun qurmağa çalışsalar da, onların tətbiq etdikləri istehsal modelləri bəzi hallarda qəbul edən ölkənin ekoloji siyasətinə tam uyğun gəlmir.

İqtisadi və ekoloji məsələlər bir-biri ilə sıx bağlıdır və bir sahədə əldə edilən nəticələr digər sahədəki problemləri tamamilə həll etmir. Ətraf mühitin vəziyyəti iqtisadi fəaliyyətin potensialına birbaşa təsir etdiyi kimi, sürətli iqtisadi inkişaf da qlobal ekoloji şəraiti dəyişdirir.

İntensiv iqtisadi inkişaf enerji istehlakının artmasını tələb edir. Yeni neft, qaz və kömür yataqları aşkar olunsa da, bir çox ölkələr enerji resursları çatışmazlığı ilə üzləşir və proqnozlara görə, 2050-ci ilə qədər qlobal enerji kəsiri müşahidə edilə bilər. Resurs çatışmazlığı genişmiqyaslı iqtisadi itkilərə səbəb olaraq milli iqtisadiyyatın inkişafını ləngidə və bəzi sahələrdə istehsalın azalmasına gətirib çıxara bilər ki, bu da iqtisadi artımın tələblərinə cavab verilməsinə mane olur.

2000-ci illərdən etibarən dünya üzrə ətraf mühit problemləri daha da sürətlə artmışdır: şirin su və ərzaq çatışmazlığı, iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi, meşələrin məhv olması və səhralaşma bunların arasında ən ciddi məsələlərdir.

Bəşəriyyət bu gün 6 milyard hektar meşə sahəsinin təxminən 2 milyard hektarını itirmişdir. Məsələn, ABŞ-da meşələrin üçdə birindən çoxu məhv olmuş, Avropada isə meşələrin, demək olar ki, hamısı itmişdir. Meşə sahələrinin azalması qida, enerji və digər meşə məhsulları ehtiyatlarının azalmasına səbəb olur və bunun nəticəsində ölkələrin iqtisadiyyatı ziyan görür. Meşələrin bərpası və qorunması üçün hər il milyardlarla dollar xərclənir, lakin itirilmiş 11 milyon hektardan yalnız 1 milyon hektarı bərpa edilir. Meşə itkisi nəticəsində yaranan iqtisadi zərər ildə təxminən 5 trilyon dollara çatır.

Hazırda quru sahələrinin ümumi sahəsi təxminən 140 milyon km² təşkil edir, bunun isə 23%-i deqradasiyaya uğramış, 15%-i isə funksional olaraq itmişdir. Urbanizasiya ilə bağlı olaraq kənd təsərrüfatı torpaqları su çıxarılması və tullantıların idarə olunması məqsədilə daha çox istifadə olunur [6]. Torpaq ehtiyatlarının azalması və keyfiyyətinin pisləşməsi qida istehsalını məhdudlaşdırır və uzunmüddətli perspektivdə iqtisadi inkişaf üçün ciddi əngəl yarada bilər.

İqtisadi artımın sürətlənməsi sənaye sektorunda su istehlakının artması ilə birbaşa əlaqəlidir. Dünyadakı ümumi su ehtiyatlarının yalnız 2,5%-i şirin sudan ibarətdir və bunun üçdə ikisi buzlaqlarda saxlanılır. Su qida istehsalı və sənaye istehsalında geniş istifadə olunur, ən çox su enerji, kağız, kimya və metallurgiya sənayelərində sərf olunur.

Hal-hazırda təxminən 700 milyon insan su çatışmazlığı yaşayan bölgələrdə yaşayır və bu rəqəmin 2025-ci ilə qədər 3 milyarda çatacağı proqnozlaşdırılır. Hazırda planetdə təxminən 2,2 milyard insanın təhlükəsiz içməli suya çıxışı yoxdur. Analitik proqnozlara görə, 2030-cu ilə qədər 700 milyon insan ciddi su çatışmazlığı səbəbindən yaşadıqları əraziləri tərk etmək məcburiyyətində qala bilər [1]. Eyni zamanda, dünya üzrə üç milyard insan ev şəraitində əsas gigiyena vasitələrindən, o cümlədən əlyuma imkanlarından məhrumdur ki, bu da infeksion xəstəliklərin, o cümlədən COVID-19 kimi pandemiyaların qarşısının alınmasını çətinləşdirir.

Qlobal su çatışmazlığı sənaye və kənd təsərrüfatı fəaliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdıra və ÜDM-in xeyli azalmasına səbəb ola bilər. Bəzi ölkələrdə bu göstərici 6%-ə qədər ola bilər.

Hava çirkliliyi qlobal miqyasda ən ciddi problemlərdən biridir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il təxminən 7 milyon insan hava çirkliliyinə bağlı xəstəliklər nəticəsində həyatını itirir, dünya əhalisinin isə doqquzdan biri normadan yüksək çirklənmiş havada nəfəs alır [5]. Hava keyfiyyətinin aşağı olması ciddi sosial-iqtisadi risk yaradır, çünki onun təsiri sərhəd tanımır və cəmiyyətin məhsuldarlığı və inkişafına mənfi təsir göstərir.

Hava çirkliliyi isə qlobal xəstəlik yükünün əsas ekoloji faktorlarından biridir və hər il təxminən

6-7 milyon insanın vaxtından əvvəl ölümünə səbəb olur, həmçinin iqtisadi itkilərə yol açır. Tədqiqatlara görə, hava çirkliliyi nəticəsində yaranan qlobal rifah itkisi təxminən 6 trilyon dollar, yəni qlobal iqtisadi məhsulun 6,6%-i səviyyəsində qiymətləndirilir. Bu isə ətraf mühitin qorunması və dayanıqlı inkişafın qlobal iqtisadiyyat üçün nə qədər vacib olduğunu bir daha göstərir.

Şəhərlərdə hər 10 şəhər sakinindən 9-u çirkli hava ilə nəfəs alır (yəni Ümumdünya Səhiyyə Təşkilatının qaydalarına cavab verməyən hava). 2010-cu ildən bəri dünya əhalisinin 50%-dən çoxu üçün havanın keyfiyyəti pisləşib.

Planetdə 2 milyard hektar torpaq deqradasiyaya məruz qalır və bu da 3,2 milyard insanın həyatına mənfi təsir göstərir. 2022-ci ildə orta və ya ağır qida təhlükəsizliyi ilə üzləşən insanların (kifayət qədər qidaya müntəzəm çıxışı olmayanların) sayının 2,4 milyard və ya dünya əhalisinin 29,6%-i olduğu təxmin edilir.

İnsan istehlakı üçün istehsal olunan qidanın təxminən üçdə biri hər il itirilir və ya israf edilir. Bu itkinin əksəriyyəti inkişaf etmiş ölkələrdə baş verir.

Planetin meşə sahəsi əsasən kənd təsərrüfatı istehsalının genişlənməsi səbəbindən sürətlə azalmağa davam edir. Hər il 10 milyon hektar meşə məhv edilir.

Qlobal miqyasda yaranan tullantıların həcmi sürətlə artmaqda davam edir. Hazırda təxminən 2 milyard ton bərk tullantı əmələ gəlir və 2050-ci ilə qədər bu miqdar 3,4 milyard tona çatacaq.

1998-ci ildən 2024-cü ilə qədər iqlimlə əlaqəli fəlakətlər dünya miqyasında fəlakətlərdən yaranan təxminən 3 trilyon dollarlıq birbaşa iqtisadi itkilərin 77%-ni təşkil edib. Planetimizdəki 8 milyon heyvan və bitki növündən bir milyonu məhv olmaq təhlükəsi ilə üzləşir.

Davamlı səviyyədə qlobal dəniz balıq ehtiyatlarının payı 1974-cü ildəki 90%-dən 2024-cü ildə 67%-ə düşüb.

Son 100 ildə dünya miqyasında təbii bataqlıqların təxminən 50-70%-i yoxa çıxıb.

Ətraf mühit problemlərinin Azərbaycan iqtisadiyyatına təsiri və həll yolları

Ətraf mühit problemləri insan sağlamlığına, iqtisadi məhsuldarlığa və ümumi iqtisadi artıma birbaşa təsir göstərir. Azərbaycan üçün də ətraf mühitin qorunması strateji əhəmiyyət kəsb edir. Ölkədə sənaye, kənd təsərrüfatı və nəqliyyat sektorlarının fəaliyyəti nəticəsində atmosfer çirkliliyinin artması, su ehtiyatlarının səmərəsiz istifadəsi və meşə örtüyünün azalması müşahidə olunur. Bu problemlərin həlli üçün yalnız çirklənmənin nəticələrini aradan qaldırmaq kifayət deyil. Eyni zamanda iqtisadi inkişafa mane olmayan davamlı və ekoloji cəhətdən səmərəli strategiyalar hazırlanmalıdır.

Tədqiqatlar göstərir ki, Azərbaycan da ətraf mühitə dəyən ziyanın iqtisadi göstəricilərinə təsirini hiss edən ölkələrdəndir. 2024-cü il statistikalarına əsasən, ölkədə ətraf mühit problemləri nəticəsində iqtisadi itkilər təxminən 12-13% səviyyəsində qiymətləndirilir. Proqnozlara görə, 2030-cu ilə qədər iqlim dəyişikliyi ilə əlaqədar təbii fəlakətlərdən yaranan ziyan illik ÜDM-in 2-3%-i, bəzi regionlarda isə 5-6%-i səviyyəsində ola bilər [3]. Bu, Azərbaycanın davamlı iqtisadi inkişafı üçün ciddi çağırışlar yaradır.

Bunun üçün enerjiyə qənaət edən texnologiyaların tətbiqi, bərpa olunan enerji mənbələrinin (xüsusilə külək və günəş enerjisinin) inkişafı prioritet olmalıdır. Qeyd etmək lazımdır ki, bu tip texnologiyaların qurulması ilkin maliyyə yatırımı tələb etsə də, uzunmüddətli perspektivdə iqtisadi və ekoloji faydalar təmin edir. Eyni zamanda, istehsal tullantılarının və ikinci dərəcəli xammalın təkrar emalı ölkənin resurslardan səmərəli istifadəsini artırır və təbii sərvətlərin qorunmasına töhfə verir. Gələcəkdə az tullantılı və sıfır tullantılı müəssisələrin təşviqi Azərbaycan üçün əhəmiyyətli inkişaf imkanları yarada bilər.

Su ehtiyatlarının idarə olunmasında isə istehsal vahidi başına düşən su istehlakının azaldılması vacibdir. Meşələrin qorunması və bərpası məsələsi də xüsusi diqqət tələb edir; icazəsiz ağac kəsiminin qarşısının alınması, meşələrin bərpası və ağac tullantılarının səmərəli istifadəsi üçün hüquqi mexanizmlərin gücləndirilməsi zəruridir.

Buna görə də Azərbaycan hökumətinin ekoloji siyasəti dövlət və özəl sektor arasında koordinasiyalı tədbirləri nəzərdə tutmalıdır. Ölkə beynəlxalq əməkdaşlıq çərçivəsində səmərəli istehsal

və nəqliyyat texnologiyalarının, bərpa olunan enerji və tullantıların emalı sahələrinin inkişafına dəstək verərək, həm ekoloji, həm də iqtisadi dayanıqlılığı təmin edə bilər.

Ölkələrdə qlobal iqtisadiyyata təsir edən əsas ətraf mühit problemləri aşağıdakı yollarla özünü göstərir:

- Resurslarla bağlı iqtisadi ziyan: genişmiqyaslı iqtisadi ziyan iqtisadi inkişafın yavaşlamasına, istehsal həcmlərinin azalmasına və ehtiyaclarla müqayisədə iqtisadi inkişafın geriləməsinə səbəb ola bilər;

- Meşələrin qırılması: Meşələrin qırılması qida təchizatının, enerji ehtiyatlarının və digər meşə məhsullarının azalmasına səbəb olur. Bu da bir çox ölkənin iqtisadiyyatına təsir göstərir. Meşələrin qırılmasından illik itkilər 5 trilyon dollara qədərdir;

- Torpaqların deqradasiyası: torpaq ehtiyatlarının sahəsi təxminən 140 milyon kvadrat kilometrdir, bunun 23%-i deqradasiyaya uğramış hesab olunur, 15%-i isə öz xüsusiyyətlərini tamamilə itirib [2]. Bu, qida istehsalına təsir göstərir və dünya ölkələrinin iqtisadi inkişafına mane olan bir amilə çevrilə bilər;

- Su qıtlığı: Qlobal su qıtlığı problemi çoxlu miqdarda şirin su istehlak edən sənaye sahələrinin inkişafının yavaşlamasına və ya tamamilə dayanmasına, eləcə də kənd təsərrüfatına ciddi ziyan vurmasına səbəb ola bilər. Su qıtlığı səbəbindən ÜDM-in azalması 6%-ə çata bilər.

Bu problemlər iqtisadiyyat üçün mənfi nəticələrə səbəb olur, məsələn:

1. Əmək məhsuldarlığının və istehsal səmərəliliyinin azalması. Hava, su və torpaq çirklənməsi insan sağlamlığına mənfi təsir göstərir, iş vaxtının itirilməsinə və məhsuldarlığın azalmasına səbəb olur;

2. Məhsul və xidmətlərin keyfiyyətinin pisləşməsi. Ətraf mühitin çirklənməsi qida məhsullarında zərərli maddələrin mövcudluğuna səbəb ola bilər, istehlakçılar üçün keyfiyyətini və təhlükəsizliyini aşağı sala bilər;

3. İnfrastruktur və vacib xidmətlər üçün təhdidlər. Hava və suyun çirklənməsi binaların, körpülərin və digər tikililərin korroziyasına, eləcə də su, elektrik enerjisi və nəqliyyat sistemlərinin sıradan çıxmasına səbəb ola bilər;

4. Səhiyyə və sosial proqramların xərclərinin artması. Ətraf mühitin çirklənməsi əhali arasında xəstələnmənin artmasına səbəb ola bilər və təsirlənənlər üçün müalicə və dəstək üçün əlavə xərclər tələb edir.

Ətraf mühit problemlərinin azaldılmasında iqtisadi və institusional mexanizmlər

Ətraf mühit problemlərini həll etmək üçün qlobal iqtisadiyyat aşağıdakı strategiyalara diqqət yetirməlidir:

- Ekoloji cəhətdən təmiz texnologiyaların və innovasiyaların tətbiqi. Bərpa olunan enerji, enerji səmərəliliyi, tullantıların təkrar emalı və ekoloji cəhətdən təmiz materialların istifadəsi kimi yeni texnologiyaların hazırlanması və tətbiqi ətraf mühitə mənfi təsirin azaldılmasına kömək edəcəkdir;

- Müəssisələrin ekoloji məsuliyyətinin artırılması. Şirkətlər istixana qazı tullantılarının azaldılması, bərpa olunan enerjidən istifadə və tullantıların idarə olunması sistemlərinin tətbiqi kimi ətraf mühitə təsirlərini azaltmaq üçün tədbirlər görməlidirlər;

- Beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin inkişaf etdirilməsi. Ölkələr və regionlar arasında əməkdaşlıq bilik və texnologiya mübadiləsini, eləcə də qlobal ekoloji problemlərə birgə həll yollarının hazırlanmasını asanlaşdıra bilər;

- İctimai maarifləndirmə və məlumatlılıq. Ətraf mühit problemləri və onların nəticələri barədə ictimaiyyətin məlumatlılığının artırılması ətraf mühitə qarşı məsuliyyətli münasibətin formalaşmasına və qoruma tədbirlərinin təşviq edilməsinə kömək edəcək.

Dövlətlər həmçinin ekoloji problemlərin həllində və qlobal iqtisadiyyatın davamlı inkişafına töhfə verməkdə mühüm rol oynayan yaşıl texnologiyalar və investisiyaları qəbul etməlidirlər. Siyasət və tənzimləmə də bu prosesə əhəmiyyətli təsir göstərir, prioritetləri müəyyən edir və aşağı karbonlu iqtisadiyyata keçidi stimullaşdırır.

Yaşıl texnologiyalar (ətraf mühitə davamlı və ya təmiz texnologiyalar kimi də tanınır) ətraf

mühitə təsirləri azaltmağı və bərpa olunan enerji mənbələrindən istifadə etməyi hədəfləyir. Ətraf mühitin qorunması və davamlı inkişafın vacibliyi barədə artan məlumatlılıq səbəbindən yaşıl texnologiyalara investisiyalar getdikcə daha cəlbedici hala gəlir. Onlar böyümə və mənfəət üçün perspektivlər təklif edir, eyni zamanda texnoloji, maliyyə və siyasi risklər kimi müəyyən risklər daşıyır [4].

Yaşıl inkişafın iqtisadi üstünlüklərinə istixana qazlarının emissiyasının azaldılması, enerji istifadəsinin səmərəliliyinin artırılması, təbii resursların qorunması və yaşıl texnologiyalar sahəsində yeni iş imkanlarının yaradılması daxildir. İctimai məlumatlılığın artırılması ətraf mühitə dair məlumatlılığın artırılmasında və yaşıl iqtisadiyyata keçidin dəstəklənməsində əsas rol oynayır.

Davamlı inkişaf və ətraf mühitə məsuliyyətli yanaşma da ətraf mühit problemlərinin və onların qlobal iqtisadiyyata təsirinin həllində əsas elementlərdir.

Davamlı inkişaf gələcək nəsillərin ehtiyaclarını ödəmədən indiki dövrün ehtiyaclarını ödəməyi hədəfləyir; iqtisadi artım, ətraf mühitin idarə olunması və sosial rifah arasında harmoniya üçün çalışır. Ətraf mühitə məsuliyyətli yanaşma həyat tərzinin daha davamlı təcrübələrə doğru dəyişdirilməsini və cəmiyyətin bütün təbəqələrinin, həmçinin hər bir fərdin ətraf mühitin qorunmasında və ekoloji tarazlığın qorunmasında fəal iştirakını əhatə edir.

Ətraf mühit problemlərinin və onların qlobal iqtisadiyyata təsirinin araşdırılması göstərir ki, davamlı inkişaf və ətraf mühitə məsuliyyətli yanaşma qlobal iqtisadiyyat üçün böyük əhəmiyyət kəsb edir. Bu amillər iqtisadi artımın sabitləşməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına və uzunmüddətli davamlı inkişafın təmin edilməsinə töhfə verir.

Beləliklə, ətraf mühit problemlərinin həlli və qlobal iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi hökumətlərin, müəssisələrin və cəmiyyətin yaşıl texnologiyaların tətbiqinə, ekoloji layihələrə fəal şəkildə investisiya qoyuluşuna, effektiv siyasət və qaydalar hazırlanmasına və əhali arasında ekoloji maarifləndirmənin artırılmasına yönəlmiş birgə səylərini tələb edir.

Ətraf mühit problemlərinin həlli ölkələr arasında təcrübə və bilik mübadiləsi, enerjiyə qənaət edən texnologiyaların, alternativ enerji mənbələrinin hazırlanması və tətbiqi, tullantıların təkrar istifadəsi və az və sıfır tullantılı müəssisələrin yaradılması üçün fəal əməkdaşlıq tələb edir.

Nəticə

Müasir dövrdə ətraf mühit problemləri qlobal iqtisadiyyat üçün ciddi çağırış yaratmaqda davam edir və onların təsiri yalnız ekoloji sahə ilə məhdudlaşmır, həm də iqtisadi artım, sosial rifah və resursların dayanıqlı istifadəsinə birbaşa təsir göstərir. Tədqiqat göstərir ki, resursların məhdudluğu, torpaqların və su ehtiyatlarının deqradasiyası, meşə sahələrinin azalması və ekosistemlərin pozulması iqtisadi inkişafın səmərəliliyini zəiflədir, istehsal potensialını azaldır və sosial xərclərin artmasına səbəb olur.

Bununla yanaşı, yaşıl texnologiyaların tətbiqi, ekoloji məsuliyyətin gücləndirilməsi və davamlı inkişaf strategiyalarının həyata keçirilməsi iqtisadiyyatın dayanıqlılığını artırır, resursların səmərəli istifadəsini təmin edir və ətraf mühitin qorunmasına töhfə verir. Beynəlxalq əməkdaşlıq və ictimai maarifləndirmə kimi tədbirlər isə qlobal səviyyədə ekoloji problemlərin həllini asanlaşdırır, innovasiya proseslərini stimullaşdırır və yeni iqtisadi imkanlar yaradır [7].

Nəticə olaraq, ətraf mühit problemlərinin iqtisadi təsirlərinin qiymətləndirilməsi yalnız iqtisadi göstəricilər üçün deyil, həm də sosial rifah, davamlı inkişaf və strateji qərarların qəbul olunması baxımından vacibdir. Tədqiqat göstərir ki, ekoloji problemlərin həlli və yaşıl transformasiyanın təşviqi iqtisadi artımın sabitləşdirilməsi, ekoloji balansın qorunması və gələcək nəsillər üçün dayanıqlı inkişafın təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Qarayeva S. Azərbaycan qlobal ekoloji problemlərin həllinə vacib töhfələr verir. Bakı, 2025. URL:https://525.az/news/304873-azerbaycan-qlobal-ekoloji-problemlerin-helline-vacib-tohfeler-verir
2. Məmmədova K. Qlobal ətraf mühit problemləri. Bakı, 2025. URL:

https://eco.gov.az/az/ekoloji-siyaset/qlobale-etraf-muhit-problemleri
3. Mürsəlzadə S. COP 29 çərçivəsində qlobal ekoloji problemlərin mümkün həlli yolları. Bakı, 2024. URL: https://news.unec.edu.az/xeber/105-telebe/11980-sop-29-cherchivesinde-global-ekoloji-problemlerin-mumkun-helli-yollari
4. Мучкина А.В.Экологические проблемы и их влияние на мировую экономику. М., 2024. URL:https://cyberleninka.ru/article/n/ekologicheskie-problemy-i-ih-vliyanie-na-mirovuyu-ekonomiku-vyzovy-i-strategii-resheniya
5. Мучкина А.В. Экологические проблемы в современной мировой экономике. М., 2024.URL:https://spravochnick.ru/mirovaya_ekonomika/ekologicheskie_problemy_v_sovremennoy_mirov oy_ekonomike
6. Мячина Л.Я. Развитие процесса экологизации экономики и его значение для мирового сообщества. М., 2021. URL: https://naukaru.ru/ru/nauka/article/45928/view
7. Захаров И. Роль экологии в мировой экономике. М., 2023. URL: https://www.warandpeace.ru/ru/exclusive/view/56458/

ст.пред., д.ф.э., Малахат Фиргат кызы Рагимова
Мингечевирский Государственный Университет
E-mail: E-mail:rehimova77@list.ru

Экологические проблемы и их влияние на мировую экономику

Резюме

Цель исследования - научное определение механизмов воздействия экологических проблем на мировые экономические процессы и определение необходимых направлений для устойчивого развития.

Методология исследования - анализ эколого-экономических взаимодействий в исследовании проводился с использованием системного подхода, сравнительного анализа и методов нормативной оценки.

Прикладная значимость исследования - результаты исследования создают практическую основу для формирования экологической политики, разработки инвестиционных стратегий в “зелёные” технологии и оптимизации экономических решений с учётом экологических рисков.

Результаты исследования показывают, что деградация окружающей среды ослабляет экономический рост, снижает эффективность производства и увеличивает макроэкономические риски из-за дефицита ресурсов.

Оригинальность и научная новизна исследования заключаются в анализе взаимодействия экологических проблем с мировой экономикой как сложной системной моделью и переосмыслении концепции “зелёной” трансформации как стратегической детерминанты экономической стабильности.

Ключевые слова: экология, окружающая среда, мировая экономика, “зелёная” экономика, устойчивое развитие.

senior lecturer, PhD in econ., Malahat Firgat Rahimova
Mingachevir State University
E-mail: E-mail:rehimova77@list.ru

Environmental problems and their impact on the world economy

Summary

The purpose of the study is to determine the mechanisms of impact of environmental problems on global economic processes on a scientific basis and to evaluate the necessary directions for

sustainable development.

Research methodology - the analysis of ecological-economic interactions in the study was carried out using a systems approach, comparative analysis and normative assessment methods.

Applied significance of the study - the research results create a practical basis for the formulation of environmental policy, the development of investment strategies in green technologies and the optimization of economic decisions taking into account environmental risks.

The results of the study show that environmental degradation weakens economic growth, reduces production efficiency and increases macroeconomic risks due to resource shortages.

The originality and scientific novelty of the study lies in the analysis of the interaction of environmental problems with the global economy as a complex system model and the reconceptualization of green transformation as a strategic determinant for economic stability.

Key words: ecology, environment, world economy, “green” economy, sustainable development.